# Ölkəmizin qlobal güc mərkəzləri ilə əlaqələri uğurla inkişaf edir

Beynəlxalq ictimaiyyət tərəfindən etibarlı tərəfdaş kimi qəbul edilən Azərbaycan qlobal güc mərkəzləri ilə siyasi və iqtisadi əlaqələrini uğurla inkişaf etdirir. Bu baxımdan Çin Xalq Respublikası ilə Azərbaycanın yüksələn xətlə inkişaf edən əlaqələri mühüm əhəmiyyət kəsb edir. Milli Məclisin deputatı Vüqar Rəhimzadə qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycan-Çin strateji tərəfdaşlığı artıq qlobal əməkdaşlığa çevrilib.



Prezident İlham Əliyevin aprelin 23-də Çin Xalq Respublikasına dövlət səfəri çərçivəsində "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"ın imzalanması münasibətlərimizi yeni səviyyəyə yüksəldib. Dövlətimizin başçısının Çin Xalq Respublikasının Sədri Si Cinpinə sentyabrın 29-da ünvanlandığı təbrik məktubunda da vurğulanıb ki, Çin Xalq Respublikası ilə əlaqələrin inkişaf etdirilməsi Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindəndir. Son dövrdə Azərbaycan-Çin münasibətləri yeni mərhələyə qədəm qoymuşdur. İki ölkənin nümayəndələri arasında fəal dialoq, səmimiyyət və qarşılıqlı etimad şəraitində keçən görüşlər, təmasların intensivliyi Azərbaycan-Çin əlaqələrinin yüksək səviyyəsindən və dinamik inkişafından xəbər verir. "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat" və imzalanan digər sənədlər ikitərəfli əlaqələri daha da yüksək pilləyə qaldırmış, dövlətlərarası münasibətlərimizin strateji mahiyyətini gücləndirmişdir", - deyə deputat xatırladıb.

O vurğulayıb ki, Çin dünyanın ən güclü dövlətlərindən biri kimi həm "Şərq-Qərb", həm də "Şimal-Cənub" nəqliyyat marşrutlarının kəsişməsində yerləşən Azərbaycanla əməkdaşlığa böyük diqqət ayırır. Azərbaycan ilə Çin arasında iqtisadi əlaqələrin genişlənməsi, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində fəaliyyətlərində də öz əksini tapıb. Şanxay Əməkdaşlıq Təşkilatı çərçivəsindəki birgə əməkdaşlıq, Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının fəaliyyəti, Asiya İnfrastruktur İnvestisiya Bankı ilə həyata keçirilən birgə layihələr və Azərbaycanın "Bir kəmər, bir yol" təşəbbüsünə qoşulması bu əlaqələri daha da gücləndirib. Eyni zamanda Şərq-Qərb və Orta dəhliz layihələri çərçivəsindəki tərəfdaşlıqları nəqliyyat və ticarət əlaqələrinin inkişafına böyük töhfə verir. Pekində Azərbaycanın Ticarət Evinin açılması da bu əməkdaşlığın uğurlarını təzahür etdirir.

V. Rəhimzadə qeyd edib ki, bu gün Azərbaycan ilə Çin arasında qarşılıqlı etimad, hörmət və dəstəyə əsaslanan münasibətlərin hərtərəfli strateji tərəfdaşlıq müstəvisində inkişafı məmnunluq doğurur: Ölkələrimiz arasında "siyasi, iqtisadi-ticari, sənaye, enerji, nəqliyyat-kommunikasiya, investisiya, kənd təsərrüfatı, humanitar və digər sahələrdə əməkdaşlıq gündən-günə genişlənir. Vizasız gediş-gəlişə dair sənədin qüvvəyə minməsi turizmin inkişafına, humanitar və mədəni əlaqələrin dərinləşməsinə mühüm təkan verəcək. Azərbaycan-Çin münasibətlərinin hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi mühüm siyasi hadisə olmaqla yanaşı, hər iki tərəfin maraqlarına cavab verir".

***Ə.QABİLQIZI,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 1 oktyabr (№210).- S.10.